

# Yurdun mübariz oğlu




**Bir şimşək ömrü yaşayaraq Vətən, torpaq yolunda qəhrəmancasına həlak olub şəhidlik zirvəsinə ucalmış Mübariz İbrahimovun igidliyi heç zaman solmayacaq. İllər ötüb keçsə də, Mübariz xalqın xatirəsində elə 22 yaşlı bir qəhrəman kimi qalacaq. Bir evdən çıxıb, bütün xalqın qəhrəmanı olmaq yalnız seçilmişlərə nəsib olur.**

## *Fevral ayının 7-si Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günüdür*

Mübariz sadə, zəhmətkeş bir insanın - Ağakərim kişinin ailəsində dünyaya göz açan üç oğuldan biri, sonbeşik idi. Ağakərim kişi, Şamama ana bu sonbeşik övladlarına Mübariz adı vermişdilər. Bəlkə elə sonbeşik övladları dünyaya göz açdığı ilk günlərdən valideynlərinə əyan olmuşdu ki, hələ ağılı kəsməyən, hər şeyə qəribə nəzərlərlə diqqət yetirən bu uşaq haqsızlıqla barışmayan, cəsur, mübariz bir yeniyetmə olacaq. Amma Ağakərim kişi də, Şamama ana da danışırlar ki, Mübariz lap kiçik yaşlarından özündən böyük qardaşlarından fərqlənir, işgüzarlığı, zəhmətsevərliyi ilə seçilirdi. Ən fərqli xüsusiyyəti isə bu idi ki, hər hansı haqsız hərəkətlə barışa bilmirdi. İllər keçdikcə Mübarizin bu keyfiyyətləri daha da möhkəmlənirdi. Orta məktəbdə əlifba bayramında "Azərbaycan əsgəri" hərbi marşına oynaması və atasını da bu rəqsə dəvət etməsi hələ də müəllimlərinin xatirindədir. Müəlliməsi Bəsirə xanım deyir ki, bir dəfə hərbi formaya bənzər bir paltar geyinməsi "baxın, əsgər formasıdır", - deyib uşaqcasına qürurlanması kimi epizodlar bəlkə də elə o vaxtdan qəhrəmanlığa gedən yolun başlanğıcı imiş.

İki il Daxili Qoşunlarda xidmət edən Mübariz Vətən əsgəri kimi bişib-bərkiyir, hərbi biliklərə yiyələnir. 2007-ci ildə hərbi xidmətini çavuş kimi başa vurur. Ata-anası sonbeşik övladlarının uca boyuna, möhkəmlənmiş əzələlərinə fərəhlə baxırlar. Əsgər paltarını soyunan Mübariz bir müddət mülki işlərdə çalışır, təsərrüfatda valideynlərinə kömək edir. Ancaq bu, çox çəkmir. Hər gün eşitdiyi cəbhə xəbərləri onu narahat edir. Və Mübariz qəti qərarını verir: "hərbi xidmətə qayıtmalıyam. Mən hələ düşmənlərə öz sözümü deməmişəm...".

Ata-anasını razı salır, yenidən hərbi forma geyinən Mübariz arzusu ilə cəbhə bölgəsindəki hərbi hissələrdən birində xidmətə başlayır. Hər gün rastlaşdığı hadisələr onun nankor qonşularımız olan ermənilərə nifrətini daha da artırır. Mübariz daha dözə, əsəblərini cilovlaya bilmir. Çoxdan beynində dolaşan fikirləri, ürəyində gəzdirdiyi son qərarını bir daha götür-qoy edir. Hərbi hissənin bir sakit küncünə çəkilib ata-anasına sonradan bütün türk dünyasına səs salacaq kiçik məktubunu yazır: "Canım atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə ürəyim artıq dözmür. Allah xatirinə bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanacan bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam, ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdür. Vətən sağ olsun. Oğlunuz Mübariz... Haqqınızı halal edin".

Və 2010-cu ilin 18 iyun tarixinə təsadüf edən həmin gecə ölümə meydan oxuya-oxuya düşmən üzərinə gedir. Düz deyirlər ki, qəhrəmanlıq üçün bir an da kifayətdir. Amma bunun üçün illərlə hazırlaşmalısan.

Mübarizin qəzəbdən, nifrətdən yanan ürəyini ancaq düşmənin məhvi söndürə bilir. Hərbidə qazandığı təcrübə köməyinə çatır. Minalanmış ərazini təhlükəsiz keçə bilir. İndi o çoxdan görüşmək arzusunda olduğu erməni qaniçənləri ilə üz-üzədir. Əlindəki silahını bərk-bərk sıxır. İlk həmlədə çoxlu sayda düşmən əsgərləri pərən-pərən düşürlər. Bu qeyrətli, ürəyində sonsuz Vətən, torpaq sevgisi gəzdirən Azərbaycan əsgərinin güllələri boşa getmir. Bir neçə saat təkbaşına, qeyri-bərabər davam edən döyüşdə Mübariz İbrahimov əsl qəhrəman kimi şəhid olur, gözlərini əbədi yumur...

Tarixə səs salan, yatan ruhlarımızı oyadan bu qəhrəmanlıq ürəklərdə iz qoyur. Ana tarix misli-bərabəri olmayan qəhrəmanlığın şahidi olur. Cəmi 22 illik ömür yaşamış bu cəngavər, ölməz Vətən oğlunun hünəri, igidliyi ata-anasına, qardaşlarına qohumlarına, dost və tanışlarına, Azərbaycan xalqına, bütün türk dünyasına başucalığı gətirir...

Öz qəhrəmanlığı ilə düşmən tərəfini sarsıtmış igid Mübariz İbrahimovun cəsədi bir neçə aydan və uzun danışıqlardan sonra geri alınaraq torpağa tapşırılır. Elin qəhrəman, Mübariz oğlu İkinci Fəxri Xiyabanda dəfn olunur. Məzarı xalqın ziyarət yerinə çevrilir. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Mübariz Ağakərim oğlu İbrahimov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülür. Bu gün Mübariz İbrahimovun şəhid olduğu postda Azərbaycan bayrağı ucalır.

Mübarizin qəhrəmancasına şəhid olmasından sonra dünyaya yüzlərlə mübarizlər göz açıb. Onların hər biri bu günümüzün və sabahımızın mübarizləridir.

Yaşasaydı fevralın 7-də 34 yaşı tamam olacaqdı. Qəhrəmancasına əbədiyyətə qovuşanların yaşı da əbədi olur. Çünki torpaq uğrunda ölüm həyatın davamıdır. Biləsuvar torpağının ilk Milli Qəhrəmanı Mübariz İbrahimovun əziz xatirəsi Vətənə, torpağa bağlı insanların ürəyində əbədi yaşayacaq. Ruhun şad olsun!

**Müşfiq MİRZƏ,**
**"Respublika".**